# STEAM

## DƏRSLİK

# 3

# Buludlara doğru



**Buludlara doğru**

Aşağıdakı təcrübəni yerinə yetirin:

- Hər hansı bir dərs kitabı götürün;
- Kitabı açın və masaya yerləşdirin;
- Vərəqlərə üfürün və onların hərəkətini müşahidə edin.

Sizcə vərəqlərin hərəkətinə səbəb olan nədir?

**İzah**

Ətrafımızda hava olsada, lakin biz onu görə bilmirik. Havanı yalnız hiss edə bilərik. Məsələn, külək əsəndə üzümüzdə sərinlik hiss edirik. Külək əsəndə bəzi əşyalar hərəkət edir: ağacların budaqları yellənir, paltarlar ipdə dalğalanır, kağız uçur və ya şar havaya qalxır. Bu hadisələr göstərir ki, hava görünməz olsa da, hərəkət etdikdə əşyaları da hərəkət etdirə bilər.

STEAM AZƏRBAYCAN

**Araşdırma**

Aşağıda təqdim olunan şəkildə müxtəlif cisimlər təsvir olunmuşdur (şəkil 1).

Hava axınının təsiri ilə hərəkət edə bilən və hərəkət etməyən obyektləri müəyyən edin. Onları uyğun olaraq ✓ (hərəkət edir) və ✗ (hərəkət etmir) işarələri ilə qeyd edin.




**Şəkil 1.** Külək vasitəsiylə hərəkət edən cisimləri seçin.

**Müzakirə**

Üzərində hərf olan kağız parçalarını şirə çöpü ilə daşıyaraq söz yaradacaqsınız (qruplarla iş).

Yuxarıda qeyd edildiyi kimi kağız parçalarının daşınmasını necə təmin edə bilərsiniz?

**Ləvazimatlar:**

- Kağız (A4 vəya rəngli kağız)
- Qayçı
- Qələm
- Şirə çöpü

**Fəaliyyətin icrası:**

- Kağızı kiçik hissələrə bölün.

**Qeyd:** Hissələri dairə və ya kvadrat formasında kəsə bilərsiziniz (şəkil 2).



**Şəkil 2**. Kəsilmiş kağız formalarına nümunələr

- Hər bir kağız parçasının üzərinə bir hərf yazın.
- Hər qrupa bir söz təyin  olunub, kağız parçalarını həmin sözə uyğun ardıcıllıqla düzün.
- Kağızları daşımaq üçün şirə çöplərindən istifadə edin (şəkil 3).



**Şəkil 3**. Şirə çöplər ilə hərflərin daşınmasına nümünə

**Qeyd:** qayçıdan istifadə edərkən təhlükəsizlik qaydalarına riayət edin!

**Fəaliyyət**

**Uçan şarını hazırla!** (qruplarla iş)

**Fəaliyyətin icrası:**

- İlk addımda karton stəkanı şəkil üzərində işarələnmiş hissədən qayçı ilə kəsin (şəkil 4);



**Səkil 4.** Stəkanın kəsilməsi

TAM AZƏRBAYCAN

- İkinci addımda, kəsilmiş stəkanın alt hissəsində bir dəlik açın. Bunun üçün qayçı və ya qələmdən istifadə edə bilərsiniz. Daha sonra şarı həmin dəlikdən keçirin. (şəkil 5);



**Şəkil 5**. Şarın dəlikdən keçirilməsi

- Şarı hava ilə doldurun və ucunu möhkəm tutun (şəkil 6);





**Şəkil 6**. Hazırlanmış yekun modelin

STEAM AZƏR

- Şarın ucunu buraxın və şarın hərəkətini müşahidə edin və səbəbini izah edin (şəkil 7);



**Şəkil 7**. Hazırlanmış modelin yuxarı qalxma anı

- Şifahi təqdimat edərək müşahidələrinizi siniflə paylaşın.

STEAM AZƏRBAYCAN